**UOT 069.7**

**Rafael HÜSEYNOV**
Filologiya elmləri doktoru, professor
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü
E-mail: rafaelhuseyn@yahoo.com
Web-site:http://rafaelhuseynov.com/

**Açar sözlər:** Ədəbiyyat muzeyi, "Xəmsə" müəllifi, Nizami yubileyi, Azərbaycan ədəbiyyatının panoramı, Azərbaycan alimləri, əmrlər dəftəri, canlı şahidlər, xatirələr, ictimai-siyasi, mədəni-intellektual mühit

**Key words:** museum of Azerbaijani Literature, author of "Khamsa", anniversary of Nizami, entire Azerbaijani literature, prominent Azerbaijani scholars, memories of living witnesses, archive documents, socio-political, cultural and intellectual environment

**Ключевые слова:** музей литературы, автор «Хамсэ», юбилей Низами, панорама азербайджанской литературы, азербайджанские ученые, книга приказов, живые свидетели, воспоминания, общественно-политическая, культурно-интеллектуальная среда

# YOLUN BAŞLANĞICI – NİZAMİ MUZEYİNİN İLK "ƏMRLƏR KİTABI"NDAN GÖRÜNƏN BİRİNCİ İLİ

Bu sadə dəftərxana kitabı Nizami muzeyinin başlanğıcının, ən ilk addımlarının şahididir. Adi arxiv dəftəri. Əl xətti ilə yazılmış "Əmrlər kitabı". Başlanıb – 1.X.1939, tamamlanıb – 31.XII.1940. Və dəftərin üz qabığındakı son qeyd: "75 il saxlamalı". Həmin hesabla bu dəftər artıq 2015-ci ilin dekabrında ləğv edilməli idi.

Həmin vərəqlərdə o qədər doğma və ləyaqətli, Azərbaycan üçün çox işlər görmüş insanların adına rast gəlinir ki, ən azı onların xatirinə bu sənədlərlə etinasız rəftar yolverilməzdir. Bu vərəqlərdə tarix var, tarixçələr yaşayır və bu qəbil zahirən vaxtı bitmiş hesab edilən sənədlərin hamısının daimi saxlanmasına ehtiyac var.

Muzeyin ilk illərinin şahidləri akademik Həmid Araslı (1902–1983) ilə Elmlər Akademiyamızın Yaxın və Orta Şərq Xalqları İnstitutunda direktor olduğu vaxtlarda birgə işlədim, mənə məhrəm, qayğıkeş münasibəti vardı, professor Mübariz Əlizadə (1911–1994) isə daha əvvəl mənə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində dərs demişdi, istəkli tələbələrindən idim, eləcə də Nizami muzeyinin ilk direktorlarından olmuş İsmayıl Axundovun (1897–1952) həyat yoldaşı Xalidə xanım Axundova universitetdə ingilis dili müəlliməm idi, sonrakı illərdə də əlaqələrimiz vardı, filologiya üzrə elmlər doktoru Vera Devittlə (1920–1997) ixtiyar çağlarında Nizami muzeyində birgə çalışdıq, o, rəhbərlik etdiyim "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsi"ndə baş elmi işçi idi, ya illərlə birgə işlədiyimiz, çox mehriban münasibətlərimiz olan Nuridə xanım Bağırova ki muzeyin ikinci direktoru Əhəd Bağırzadə (1913–1985) onun əmisi olmuşdu, illərcə yaxın təmasda olduğumuz Turan xanım Caviddən (1923–2004), təbii ki, çox şeylər soruşa bilərdim (o da bu muzeydə işləmişdi. 1944-cü il noyabrın 1-də direktor Salam Salamzadənin (1908–

1977) 21 saylı əmri ilə 700 manat maaşla kiçik elmi işçi vəzifəsinə[1] götürülmüş [11, 62], 1945-ci il iyunun 1-də artıq İsmayıl Axundovun direktor olduğu vaxt öz ərizəsi ilə işdən azad edilmişdi [11, 67] və daha neçələri, daha kimlər.

Bu əmrlər dəftərini o vaxtlar görmüş olsaydım, indi yaranan şoxlu cavabsız sualım havadan asılı qalmazdı, həmin canlı şahidlərin vasitəçiliyi ilə nə qədər qaranlıq məqamlara aydınlıq gətirmək mümkün idi.

Bəs Salam Salamzadənin özü? Axı o, yetərincə uzun ömür sürərək 1997-ci ildə 89 yaşında dünyadan köçdü və ixtiyar sinnində də hafizəsi iti idi, hətta 60-70 il qabağın olmuşlarını dəqiqliyi ilə xatırlayırdı [8, 8].

Onların hamısının ömür yolu artıq başa çatsa da, bu əmrlər dəftərində xəsis mətnlərin ardından görə bildiklərimiz bir tərəfdən muzeyin ilk addımlarını atdığı dövr haqqında aydın təsəvvür yarada bilir, digər tərəfdən də dövrün ictimai-siyasi mənzərəsini bir sıra vacib cizgiləriylə canlandırır.

Köhnə yazılar, keçmişdən qalan sənədlər yalnız dünənin xatirəsi və məhz yadigar kimi maraqlı olmaqdan əlavə, həm də keçmişlə bugünü birləşdirmək, hətta sabaha da yol göstərmək keyfiyyətinə malikdir.

"Sırf texniki səciyyəlidir" deyərək hansısa sənədləri müəyyən vaxt ötəndən sonra gərəksiz sayaraq cırıb atırlar, yandırırlar.

Hətta bunların çoxluğunu nəzərə alaraq baş da sındırıblar, məxsusən o cür sənədlərdən ötrü kağızdoğrayan maşınlar da yaradıblar.

Həmin qurğular məxfi, qeyr-i məxfi sənədləri saniyələr ərzində elə xıncımlayır ki, əllə tikələnmiş kağızı birtəhər yanbayan düzərək bərpa etmək mümkün olursa da, maşının parçaladığından daha bir söz, bir rəqəm də tapıb ortaya çıxarmaq mümkünsüzləşir.

İz birdəfəlik itir. Amma dünənə aid hər sənədin içərisində hökmən həmişə dəyər daşıyan, hansısa mətləbə doğru aparan cığır var və əgər həmin köhnə vərəqlərə baxan təcrübəli gözlərdirsə, başqalarının görmədiyi çox unudulmuş həqiqətləri sezə də, digərlərini də bunları görməyə yönəldə bilir.

---

[1] Hüseyn Cavidin (1882–1941) 1937-ci il iyunun 4-də baş verən həbsindən sonra başqa "xalq düşməni" damğası vurulanlar kimi, onun ailəsi də təqib olunurdu və Cavid soyadı ilə hər hansı dövlət müəssisəsində işə düzəlmək son dərəcə çətin idi. Salam Salamzadənin şairin qızını muzeydə işə götürməsi gününə görə qətiyyən sadə hadisə sayılmamalıdır və etdiyi bu yaxşılığa görə o, cəzalandırıla da bilərdi. Çünki "xalq düşməni" elan edilmişlərin ailəsinə qayğı göstərmək bir yana qalsın, hətta onlarla ünsiyyət belə düşmənlə əməkdaşlıq kimi dəyərləndirilirdi. Salam Salamzadənin Turan xanıma belə həssas münasibəti və diqqətinin səbəbi onun Hüseyn Cavidə olan xüsusi ehtiramı və sevgisindən gəlirdi. Cavid Darülmüəllimində Salam Salamzadənin müəllimi olmuşdu: "Cavidin bizə hələ dərs verməyə başlamadığı illərdə belə onun yaradıcılığının pərəstişkarları sırasında idim... Hüseyn Cavid bizə üçüncü sinifdən, yəni 1924-25-ci tədris ilindən dərs verməyə başladı... Hüseyn Cavid dərslərində tələbkar və ciddi idi. Buna baxmayaraq, o, acıqlı deyildi, mülayim idi. Hamımız onu sevər və dediklərinə əməl edərdik" [8, 8]. Salam Salamzadənin tələbəlikdən sonrakı illərdə də Cavidlə qarşılıqlı səmimiyyəti və görüşləri davam etmişdi: "Mən və həyat yoldaşım – Azərbaycan qadınlarından birinci kinorejissor Qəmər Salamzadə ilə birlikdə 1932-34-cü illərdə Moskvada sənətşünaslıq üzrə aspiranturada çalışırdıq. 1933-cü ildə təsadüfən Moskvada Hüseyn Cavid əfəndi ilə rastlaşdım. O vaxt biz bir uşağımızla taxtadan tikilmiş ikimərtəbəli bir evdə yaşayırdıq. Otağımız doqquz kvadratmetrdən ibarət idi. Tələbə həyatı keçirirdik. Bunların hamısını Hüseyn Cavidə izah edib onu evimizə dəvət etdik. Etiraz etmədi. Gəldi" [8, 8]. Salam Salamzadənin istər həmin axşam, istərsə də sonrakı görüşləri ilə bağlı xatirələrindən Cavidə daim heyranlıqla yanaşması, Cavidin də ona xeyirxahlığı, daim faydalı məsləhət və tövsiyələr verməsi anlaşılır. 1935-ci il noyabrın 12-də Rəssamlar İttifaqı gənc Salam Salamzadənin ilk yaradıcılıq sərgisini açarkən gələnlərin arasında o çağlarda şöhrətinin zirvəsində olan, canlı klassik sayılan Cavid də vardı [8, 8].

Tarix elə müdrik və məhrəm həmsöhbətdir ki, sən ona münasibətdə nə qədər həssas olsan, o da sənə o qədər ürək açacaq, çox olmuşlardan bəhs edəcək.

Yaxınlaşmadıqca, hal-əhval tutmadıqca uzaqdan-uzağa tanıdığın birisi sənin gözünə qaraqabaq, adamayovuşmaz gəldiyi kimi, ürəklə yaxınlaşmadığın Tarix də sənə lal-dinməz, azdanışan, söz deməyə xəsis kimi görünəcək.

...1939-cu ilin ilk sətirlərini son səhifəsində yazıblar. Axırdan başlayıblar, vərəqləri bir-birinə tikib surğuclayıblar, möhürləyiblər ki, sonra bura kənar müdaxilə olmasın, hanısısa vərəq qoparılmasın.

74 vərəqlik bu dəftərin ömrü 14 ay çəkib və sonra təhvil verilib arxivə.

Həmin 14 ay ərzində isə dəftər yaşayıb, onu vaxtaşırı açıblar, baxıblar, nəsə yazıblar.

O dəftərin əvvəlinə ilk xətt 1939-cu ilin 1 oktyabrında düşüb, son söz 1940-cı ilin 31 dekabrında yazılıb.

Bir müəssisənin əmrlər dəftəridir.

Bu cür əmrləri bir ara makinada yazardılar, indi kompüterdə yığıb çap edirlər və toplayırlar xüsusi qovluqlara.

1939-cu ildə yeni yaranan həmin müəssisədə isə hələ heç makina da yoxmuş.

Həmin il də, ondan sonrakı illərdə də xeyli müddət bütün əmrlər elə əllə yazılıb.

1939-cu ildir, amma 1940 ötəcək, ardınca 1941-ci il gələcək.

Həmin 1941-ci ildə isə dahi azərbaycanlı, 1141-ci ildə dünyaya gəlmiş, insanlıq tarixində əbədi iz qoymuş Nizami Gəncəvinin 800 yaşı tamam olacaq və onun ilk dəfə olaraq möhtəşəm yubileyi keçiriləcək.

Bu bayrama hazırlıqlarsa yalnız Azərbaycanda getmir.

Moskvada da, Leninqradda (indi Sankt-Peterburq) da, Kiyevdə də və təxminən ovaxtkı sovet respublikalarının hər birində də Nizami yubileyinə öz töhfəsini tədarük edənlər var.

Kimlərsə şairə həsr edilən monoqrafiyalar üzərində işləyir, kimlərsə tərcümələr edir, kimlərsə Nizami portreti müsabiqəsinə qoşulub, kimlərsə Nizami sözlü bəstələr doğurur...

Yubliey günlərində Nizaminin həyat və yaradıcılığına həsr edilmiş muzey-ekspozisiya da qapılarını tamaşaçılara açmalıdır.

Elə indi vərəqlənən bu "Əmrlər kitabı" da yolunu yeni başlayan həmin muzeyinkidir.

Tanınmış rəssam Salam Salamzadə muzeyin ilk direktoru təyin edilib və "Əmrlər kitabı"nda ilk sətirləri yeni direktor öz səliqəli xətti ilə özü haqqında yazır:

**"Əmr №1**

**1 oktyabr, 1939.**

**Bu tarixdən Xalq Komissarları Şurası yanında İncəsənət İşləri İdarəsinin 664 nömrəli əmri əsasında 700 rubl maaşla Nizami muzeyi-sərgisinin direktoru vəzifəsinin icrasına başladım.**

**Muzey-sərginin direktoru Salamzadə"** [10, 1a].

Mən bu mətni tərcümə edərək ana dilimizdə yazıram. Əmrin əsli ruscadır. Ümumən burada başdan-sona nə yazılıbsa, hamısı ruscadır.

Elə bundan sonra gələn növbəti illərin əmr kitabları da beləcə.

Bu əlamət artıq içərisindən keçib gəldiyimiz keşməkeşli milli tariximizdəki ağrılı bir həqiqətin göstəricisidir.

Köhnə dövrləri görmüş bizlər ki bilirik vəziyyət necə olub!

Azərbaycandakı bütün idarə və müəssisələrdə, mədəniyyət ocaqlarında, ali məktəblərdə... hər yerdə yazışmalar, sənədləşmələr rusca aparılırdı, iclaslarda, ən milli mövzulardakı mərasimlərdə də məruzələr, çıxışlar rus dilində edilirdi və hər kəs də bu gerçəkliklə barışan kimiydi.

Ona görə də Sovet İttifaqının yürütdüyü belə siyasət çərçivəsində milli ruhun bariz ifadəçisi olacaq Nizami muzeyi kimi bir elm-mədəniyyət ocağının yaradılmasına dövlətin qərar verməsi sadə hadisə deyildi.

Noyabrın 1-dir və hələlik yeni muzeyin bircə işçisi var, o da direktor. Ertəsi gün direktorun ikinci əmri ilə daha bir nəfər işə götürülür – Əziz Əliyev müvəqqəti olaraq muzeyin katibi vəzifəsinə qəbul edilir [10, 1a] və yarım ay muzeydə rəsmən elə 2 işçi olur: direktor və katib.

Təzə il gəlir. 1940-cı ilin son yanvar günlərində imzalanan əmrlər artıq bu gün bizə tarixi həqiqətləri açır, xəbər verir ki, muzeyin ilk ekspozisiyasını qurmaq üçün materiallar necə toplanırmış, haralardan yığılırmış, bu işlə kimlər məşğulmuş.

Yanvarın 23-də imzalanan əmrlə Nizami muzeyinin ekspozisiya planını tutmaqçün yaradılmış briqadanın üzvü, elmi işçi Mübariz Əlizadə materiallar toplamaq məqsədilə 2 həftəliyə Tbilisi və Yerevana ezam edilir [10, 3a].

Yanvarın 28-də verilən başqa bir oxşar əmrlə ayın 29-dan yenə həmin briqadanın digər üzvləri – Tarix İnstitutunun direktoru Aleksey Alekseyeviç Klimov[1] (1894–1948) və elmi işçi Həmid Araslı 25 günlüyə Moskva və Leninqrada, elmi işçi İshaq Cəfərzadə[2] (1895–1982) isə 1 aylığa Aşqabad, Daşkənd, Səmərqənd və Buxaraya ezam edilirlər [10, 3b].

Xəzinəni yaratmaq yolunda çalışmalar belə başlanırdı və o vaxt xeyli cavan olan bu insanların hamısı sonralar Azərbaycan elmi və mədəniyyətinin canlı klassiklərinə çevriləcəklər.

1940-cı il fevralın 27-sidir, muzey 4 aydır işə başlayıb və direktor ilk cəza əmrini də verir.

80 ilin uzaqlarında qalmış bu əmr, yəqin, o zaman narahatlıq da doğurub, qan da qaraldıb, təbii ki, acı ibrət dərsi də olub və vaxt ötəndən sonra yaddan çıxıb gedib də.

İndi nə o əmri verən həyatdadır, nə cəzanı alan, nə də həmin çağlarda o muzeydə çalışmış 10-15 nəfər əməkdaş.

---

[1] A.A.Klimov Azərbaycan tarixində və tarixşünaslığında misilsiz xidmətlərinə görə həmişə ehtiramla anılmağa layiq bir simadır. Azərbaycana 1920-ci ildə gələn A.Klimov bir etnoqraf, etnoloq, tarixçi kimi ardıcıl fəaliyyətlərini 1930-cu illərdən başlamışdır. Azərbaycanın əlyazma irsini toplamaq yolundakı səyləri və tapıntıları xüsusi vurğulanmalıdır. A.Klimov Nurməhəmməd Əfəndi Nuxalıya məxsus zəngin əlyazma xəzinəsi ilə yanaşı, vaxtilə Yelizavetpol oğlan gimnaziyasına məxsus olmuş kitabxananı aşkarlamış, Ordubadda Xaraba Gilan yaşayış məskənini ilk tədqiq edənlərdən olmuşdur. Azərbaycan Tarixi İnstitutunun, Azərbaycan Tarixi Muzeyinin direktoru olmuş, Nizami muzeyinin də quruculuğunda yaxından iştirak etmişdir [Ətraflı bax: 13, 416-417].

[2] Nizami muzeyi yarandığı çağdan yalnız xalqın söz sərvətlərinin deyil, həm də bütövlükdə tarixinin, mədəniyyətinin aynasına çevrilmişsə, bunun ilk səbəbi başlanğıcdan muzeyin quruculuq işlərinə tanınmış ədib və ədəbiyyatşünaslarla yanaşı tarixçilərin, arxeoloqların, epiqrafika, numizmatika, etnologiya, sənətşünaslıq və digər sahələr üzrə ən seçmə mütəxəssislərin cəlb edilməsi olmuşdur. İshaq Cəfərzadənin Nizami muzeyi qurularkən ekspozisiyanın hazırlanmasında ilklərdən biri kimi dəvət edilməsinin birinci səbəbi o idi ki, artıq kifayət qədər sanballı alim kimi tanınmış bu arxeoloq və etnoqraf Azərbaycanın bir sıra başqa qədim yaşayış məskənləri ilə yanaşı, Nizaminin doğma şəhəri Gəncədə də arxeoloji qazıntılar aparmış, bu haqda ayrıca məqalələr də dərc etdirmişdi [Haqqında ətraflı bax: 13, 372-374].

Təsir gücünü lap çoxdan itirmiş həmin əmrsə bu gün danışa və o əyyamların, o insanların yaşadığı cəmiyyətin bəzi siyasi reallıqlarını müasirlərimizə çatdıra bilir.

Az öncə 250 manat məvaciblə makinaçı vəzifəsinə götürülmüş Y.A.Mixaryova xidməti sənəd itirdiyinə və kənar şəxsin makinada yazmasına imkan verdiyinə görə fevralın 28-dən işdən azad edilir [10, 5a].

Bu bircə cümləlik sənəd nələr söyləyir!..

Əvvələn, fikir verin, Azərbaycan ədəbiyyatının tarixi, Nizami Gəncəvi ilə bağlı muzeyin makinaçısı rusdur. Həmin vəzifəyə azərbaycanlı deyil, bir rus götürülübsə, bu o deməkdir ki, müəssisədə çap ediləsi materiallar hamısı rusca olacaq.

Və törədilmiş qəbahətə diqqət edilsin: kənar şəxsə makinadan istifadəyə imkan yaradıb.

Sovet dönəmində yazı makinası silah kimi bir avadanlıq sayılırdı[1]. Xüsusi xidmət orqanları onların hamısını nəzarətdə saxlayırdı və hər birinin nömrəsi bəlli idi. Həm də yalnız idarələrdə, müəssisələrdə olanlarının deyil, şəxslərdə, evlərdə olanlarınkı da!

Nəinki Azərbaycan, hətta bütün SSRİ üzrə hansısa makinada dövlətin zərərinə olan bircə səhifə yazı aşkarlansaydı, həmin makinanı müəyyənləşdirmək dövlətin əlində sadə bir iş idi.

Odur ki, bir işçinin makinasında başqasına yazmaq şəraiti yaratması öz tabel silahını başqa bir adama istifadəyə vermək kimi təhlükəli əməl sayılırdı və addımı, lazım gələrsə, cinayət kimi mənalandırmaq da o dövrün ölçüləri ilə çətin deyildi.

Həm də belə bir əmrlə işdən çıxarılandan sonra adam Dövlət Təhlükəsizlik Komitəsinin “qara siyahı”sına düşürdü və elələrinin başqa yerdə işə düzəlməsi də mürəkkəbləşirdi. Lap lazımlı mütəxəssis olub işə götürülsələr də, daim diqqətdə, nəzarətdə saxlanılırdılar.

Hər xırda təfərrüata getməyə ehtiyac yoxsa da, bunu vurğulamağa lüzum var ki, xeyirxah bir insan olmuş Salam Salamzadənin işçisinə qarşı bunca sərt cəza tədbiri müəyyənləşdirməsində, onu dərhal işdən azad etməsində də epoxanın izi, rəngi var.

1937-1938-ci illərin fırtınaları bu insanlara yaxşı tanış idi, onlar elə faciələrə, başqa cür yozulan adicə bir kəlmə üstündə həbs edilən, güllələnən, sürgünlərə göndərilən o qədər qurbanlara şahid olmuşdular ki, hər an siyasi baxımdan ayıq-sayıq qalmağa məcbur idilər.

Belə qatmaqarışıq dövrləri yaşayıb insanlarımız.

O vaxt Nizami muzeyində bütün çap üçün nəzərdə tutulan yazıların rusca olmasının digər sübutu bir neçə gün sonra verilmiş ayrı bir əmrdir. Makinaçı ştatı boş saxlanmır, martın 4-də 11 saylı əmrlə o vəzifəyə başqa adam götürülür: Y.Y.Rabinoviç! [10, 5a]

---

[1] Bütün gücünə baxmayaraq, var olduğu müddətcə həmişə mətbu sözdən, xarici radiodalğalardan qorxan, mətbuatda dövlət sirlərinin mühafizəsi adı ilə hər çap məhsulunu, efir materialını senzura süzgəcindən keçirən sovet dövləti əleyhinə ola biləcək hansısa materialın hətta makinada yazılaraq yayılmasının qarşısını almaqçün tədbir tökürdü. Elə Nizami muzeyinin artıq 1941-ci ilə aid “Əmrlər kitabı”nda bununla bağlı səciyyəvi sübut var. 1941-ci il aprelin 28-də verilmiş 34 saylı əmrdə göstərilir ki, qarşıdan gələn 1 may bayramı ilə əlaqədar ayın 29-dan 3-dək muzeydə fasiləsiz növbətçilik təmin edilsin və muzeydə olan 2 yazı makinası, eləcə də surətçıxaran kağızlar xüsusi otağa qoyularaq qapı möhürlənsin, açar məsul növbətçiyə təhvil verilsin [11, 14b].

Belə görünür ki, Azərbaycan dilində heç bir yazı çap edilmirmiş ki, uyğun makinaçı da işə götürülməyib[1].

Və möcüzə baş verir. Martın 10-da direktorun yeni, muzey üzrə sayca 12-ci əmri ilə "işdən düzgün çıxarılmadığına görə" İ.A.Mixaryova yenidən vəzifəsinə bərpa edilir, onun əvvəlki işinə qayıtması səbəbindən boşalmış ştata götürülmüş Y.Y.Rabinoviç azad edilir [10, 4b].

Yeni əmrdə Mixaryovaya törətdiyi əmələ görə sadəcə şiddətli töhmət verilir [10, 5b-6a].

"Sadə" və "şiddətli" sözləri yan-yana təzadlı görünsə də, hər halda ağır ittihamla işdən çıxarılmağın müqabilində töhmətin lap şiddətlisiylə olsa da can qurtarıb işdə qalmaq, üstəlik, işdən qovulandan sonra əvvəlki yerinə bərpa edilmək gününə görə xoşbəxtlik idi.

Ehtimal ki, bu, guya makinaçı xanımın harasa şikayəti əsasında baş verə bilməzdi.

Mümkündür, onu yuxarılardan kimsə tapşırıbmış ki, işiniz olmasın, yüngül cəzayla yola verin.

Məhz tapşırıq! Belə hərəkətə görə kiminsə S.Salamzadəyə xahiş-minnət edəcəyini, onun da bu təvəqqenin müqabilində yumşalacağını ağla gərirmək belə olmaz.

Çünki əmrdə göstərilən faktlar həqiqətən baş vermişdi ki, yeni əmrdə də olduğu kimi saxlanılırdı.

Zəmanə elə idi ki, ürəyiyumşaqlıq göstərmək yeri yox idi.

Belə məqamlarda həmişə ilk növbədə öz taleyini, ailəni, yaxınlarını düşünməli idin.

Repressiya qurbanları haqqında vaxtilə Dövlət Təhlükəsizlik Nazirliyinin arxivində yüzlərlə cild sənədləri, dindirmə protokollarını oxumuşam, Sibirdəki həbs düşərgələrinin əzablarını dadıb qayıtmışlarla bolluca həmsöhbət olmuşam və məndə həmin çağların necəliyi barədə sadəlövh xəyallardan uzaq, sərt, soyuq həqiqətlərə dayanan ağrılı qənaətlər yaranıb.

Nizami muzeyinin, ədəbiyyatımızın, Nizami Gəncəvinin ədəbi taleyi ilə bəlkə də bilavasitə bağlanmayan bu epizod üzərində belə geniş dayanmağa sövq edən muzeyin də, ədəbiyyatımızın da, Nizaminin də, insanlarımızın da axarında olduğu həmin dövrün ağlı-qaralı tərəflərini aşkar göstərmək niyyətidir.

O sualı verməyə tələsməyin ki, bəs ermənilər harada qaldı?! Gəlirlər! Heç olarmı ki, 1930-1940-cı illərdə hər yerə daraşmış ermənilər burada gözə dəyməyə?

Mart ayının 15-də İncəsənət İşləri İdarəsinin, oçağkı Mədəniyyət Nazirliyinin əmri ilə M.Q.Sarkisov Nizami muzeyinə direktor müavini vəzifəsinə göndərilir [10, 7a]. Düzdür, onun direktor müavinliyi uzun çəkmir – cəmi ikicə həftə.

Martın 27-də Sarkisovu başqa, daha yuxarı vəzifəyə aparırlar. Yerinə kim gəlsə yaxşıdır? Yenə erməni – M.Saturov [10, 7b].

Muzey ilk növbədə eksponatlar deməkdir. Ona görə də 1940-cı ilin ilk aylarından artıq muzeyin yaradılacaq ekspozisiyasında və fondlarında yer almalı eksponatları əldə etməklə bağlı addımlar atılır. Ayrı-ayrı rəssamlara sifarişlər verilir, toplanmalı kitablar cəmlənir, gözaltı edilmiş ayrı-ayrı eksponatların əldə edilməsi ətrafında düşünülür. Bütün bunları gerçəkləşdirmək üçün isə muzeyin təcrübəli

[1] 1940-cı il mayın 15-də verilən əmrlə növbəti dəfə boşalmış makinaçı ştatına yeni işçi qəbul edilir. Nizam həmin nizamdır. Bu da O.T.Feydak [10, 14a]. Gün gəlir, o da işdən gedir. 8 avqust tarixli 60 saylı əmrlə işə götürülən yeni makinaçı O.V.Derbasovadır [10, 33a].

ekspertlərdən ibarət bədii əsərləri qiymətləndirən və qəbul edən ayrıca komissiyası olmalıdır.

1940-cı il martın 11-də verilən əmrdə onların adları sadalanır. Aralarında muzeyin əməkdaşları da var, kənardan dəvət edilənlər də. Amma bu heyət özü bir nümunədir. Bu siyahıda bir nəfər belə xala-xətrin qalmasın, ya nüfuzuna, yalnız vəzifəsinə görə əlavə edilmiş ad yoxdur. Hamısı o vaxt da, indi də əksəriyyət tərəfindən etiraf edilən güclü mütəxəssislər, dərin alimlərdir: Salam Salamzadə, Əzim Əzimzadə (1880–1943), İsmayıl Axundov, Qəzənfər Xalıqov (1898–1981), İshaq Cəfərzadə, Həmid Araslı, Əjdər Ələsgərzadə[1] (1895–1964), Mürsəl Nəcəfov (1918–1979), Həsənağa (Həsən) Mustafayev (1896–1971) (o, Nizami yubiley komitəsinin üzvü, Əməkdar İncəsənət Xadimi idi), İlya Gerasimoviç Rıjenko[2] (1887–1952), Vadim Nikolayeviç Leviatov[3] (1905–1963) [10, 6b-7a].

Tərkibi təsdiq edən 15 saylı əmrdə kənardan dəvət edilən mütəxəssislərə hər iclasa görə 30 manat zəhmət haqqı ödəniləcəyi barədə qeyd var [10, 7a].

Bu nöqtəyə də o səbəbdən diqqət yönəldirəm ki, vaxtından, biliyindən, əməyindən istifadə edilmiş insanların mənəvi dəyərləndirilməsi ilə yanaşı həmişə gərək maddi qiymətləndirilməsi də ola.

İndinin indisində çox vaxt komissiyalar yaradılır, ora toplaşan insanlar saatlarla vaxt, enerji itirir, fikir söyləyir, məsləhətlər verir, lazım gələndə çoxsəhifəli işləri oxuyur, lakin onlarla quruca "sağol"la xudahafizləşirlər.

Odur ki, bu köhnə əmrdə nəzərdə tutulan ödəniş məsələsi bu gün bütün uyğun istiqamətlərdə tətbiq edilərsə, həm işin keyfiyyətinə, həm də gəlir mənbələri yalnız zəkaları, istedadları olan elm, sənət adamlarının dolanışığına müsbət təsirini göstərərdi.

---

[1] Əjdər Ələsgərzadə Azərbaycan epiqrafika elminin ən parlaq simalarından biri, ədəbi-mədəni tariximiz üçün müstəsna dəyər daşıyan bir silsilə daş yazıların ilk oxuyucusudur. Nizami Gəncəvi (1141–1209) və Xaqani Şirvaninin (1120–1199) sinə daşlarının estampajlarını [9, 286-287], Yusif ibn Küseyr (mavzoleyin tikilmə tarixi 1161–1162) və Möminə xatun (mavzoleyin tikilməsi 1175-ci ildən sonra) türbələrinin, Qız qalasının və digər tarixi incilərin mətnlərini oxuyaraq ilk dəfə elmi dövriyyəyə gətirməklə yanaşı, həmin yazıların hamının gözü qarşısında olması üçün bu abidələrin fraqmentləri və maketlərinin Nizami muzeyinin ilk ekspozisiyasında yer almasının da təşəbbüskarı Ə.Ələsgərzadə idi. Arxeologiya, epiqrafika ilə yanaşı, ədəbiyyat məsələlərində də səriştəli olan Ə.Ələsgərzadə 1930-cu illərin əvvəllərində Məhəmməd Füzulinin (1483–1556) "Divan"ının elmi-tənqidi mətnini də Salman Mümtazla (1884–1941) birgə hazırlamışdı [Haqqında daha ətraflı bax: 13, 295-296].

[2] Rəssam və publisist, Azərbaycanın Əməkdar İncəsənət Xadimi İ.G.Rıjenko Peterburq Gözəl Sənətlər Akademiyasını bitirmiş və Azərbaycana 1928-ci ildə gəlmişdi [12, 53-56]. Bakı Rəssamlıq texnikumuna rəhbərlik etdiyi illərdə Azərbaycanın gələcəkdə böyük şöhrət qazanacaq bir sıra heykəltəraşlara, o cümlədən Fuad Əbdürrəhmanova (1915–1971) [3, 13] və həmin dövrün əksər gənc rəssamlarına dərs dedi [17, 37], realist məktəbin nümayəndəsi kimi 1930-cu illərdə Azərbaycanın yaxın tarixi keçmişi haqqında silsilə əsərlər yaratdı [17, 36, 41].

[3] Nizami muzeyi yaradılarkən əvvəldə heç də Azərbaycan ədəbiyyatının bütöv mənzərəsini tam əks etdirəcək bir ekspozisiya kimi deyil, Nizaminin ev muzeyi kimi təsəvvür edilirdi. Ona görə də başlıca diqqət gəncəli dahinin özünə və yaşadığı dövrün mənzərəsini daha dolğun və əyani şəkildə göstərməyə yönəlmişdi. Keramika nümunələri isə istənilən məkanın mədəni səviyyəsini bariz şəkildə nişan verən tarix şahidləridir. İlk ekspozisiyanın qurucuları sırasında olan görkəmli alim Vadim Leviatov Gəncənin keramika mirasını ətraflı tədqiq və təhlil etmiş, bu haqda ayrıca monoqrafiya da nəşr etdirmişdi [14]. Məhz onun yönəldiciliyi və tövsiyələri ilə Nizami muzeyinin ekspozisiyasında XII-XIII əsrlərin cazibəli keramika nümunələri geniş həcmdə təqdim olunmuşdu. V.N.Leviatovun bilicilərindən olduğu Şirvanşahlar saray kompleksi [16], XVIII əsr Azərbaycan tarixi [15] də Nizami muzeyinin ekspozisiyasında ədəbi faktlara uğurlu tarixi fon olaraq mükəmməl şəkildə təqdim edilibsə, bu da muzeyin quruculuğu illərində V.N.Leviatovun daimi məsləhətçilərdən biri olmasından qaynaqlanır.

Salam Salamzadənin, ilk direktorun muzeyə birinci rəhbərliyi 1940-cı il martın 31-də başa çatır [10, 8a] (Bir müddət sonra ona qısa müddətə direktor vəzifəsi yenidən həvalə edilir. 1943-cü il sentyabrın 25-də 19 saylı əmrlə direktor vəzifəsində işə başlayır [11, 58b], 1945-ci ilin 6 aprelində 9 saylı əmrlə "haqqında onu kompromitə edən materialların üzə çıxması ilə əlaqədar" işdən azad edilir [11, 66a]).

1940-cı il aprelin 2-də S.Salamzadənin vəzifədən getməsi və İncəsənət İşləri İdarəsinin 270 nömrəli sərəncamına əsasən özünün muzeyin yeni direktoru təyin edilməsi haqda 19 saylı əmrə Əhəd Bağırzadə [10, 8a] qol çəkir.

"Qol çəkir" yazıram, ona görə ki, ayın 27-dək olan, yəni imzaladığı son əmrədək bütün bu qəbil sənədləri Salam Salamzadə özü öz əli ilə yazıb.

Aprelin 2-dəki əmrdə artıq başqa xətdir [10, 8a].

Yeni direktor sadəcə hazır mətnə imza atır. Ta 1940-cı il avqustun 25-də direktor olaraq imzaladığı sonuncu əmrədək [10, 34b-35a].

1940-cı il avqustun 29-da artıq yeni direktor İsmayıl Axundov İncəsənət İşləri İdarəsinin həmin gün verilmiş 712 saylı sərəncamına əsasən özünün Nizami muzeyinə direktor vəzifəsində işə başlaması, Əhəd Bağırzadəninsə Moskvaya təhsil almaq məqsədilə ezam edilməsi səbəbilə direktor vəzifəsindən azad edilməsi haqda əmri imzalayır [10, 36a].

Direktorun öz xətti ilə əmrləri yazmaq adəti elə Salamzadə ilə də bitir.

Əhəd Bağırzadə kimi, İsmayıl Axundov da "Əmrlər kitabı"nda yazılmış mətnlərin altından sadəcə qol çəkir.

İsmayıl Axundovun ilk əmrlərindən biri 1940-cı ilin 26 sentyabrına aiddir və həmin əmrlə 16 oktyabrdan etibarən Cavad Rəfibəyov (1890–1956), İvan Pavloviç Şeblıkin[1] (1884-1947) , Vadim Nikolayeviç Leviatov saathesabı ödənişlə (saatı 7 rubl 50 qəpik olmaqla adambaşına ayda 40 saat) ştatdankənar məsləhətçi vəzifəsinə işə götürülürlər.

Bunlar sadə adlar deyil. V.Leviatovun Cənubi Qafqaz tarixinə dair mükəmməl elmi araşdırmalarına və İ.Şeblıkinin əsərlərinə bələd olsam da, Cavad Rəfibəyovu daha yaxından və yaxşı tanıyıram. Onun ömür yolunu, düyünlü taleyini, parlaq şəxsiyyəti və qiymətli elmi irsini diqqətlə arşadırmışam və bu haqda ayrıntıları ilə ayrıca və geniş yazmışam [7, 650-693].

Cavad Rəfibəyli Azərbaycanın ilk sənətşünası adlandırıla biləcək böyük zəka sahibi və son dərəcə kübar ziyalı idi. Cavad bəyin Azərbaycan xalq sənətinin tarixi, İran və Azərbaycan gözəl sənətləri arasında qarşılıqlı əlaqə və təsirlər, təsviri sənət terminləri, Azərbaycan memarlığının bəzi məsələləri haqda araşdırmaları, həmçinin Nizami muzeyində işləyərkən yazdığı və mənə vaxtilə surətlərini oğlu Hadı bəy

[1] 1920-ci illərdə Azərbaycanda elm, təhsil və mədəniyyət sahəsində yeniləşmə və böyük quruculuq siyasəti gerçəkləşdirilərkən respublikaya kənardan dəvət edilmiş yüksəksəviyyəli mütəxəssislər həm öz yaradıcılıqlarında tamam təzə səhifələrin açılmasına nail olmuş, həm Azərbaycan təhsili, elmi, musiqisi, rəssamlığı, heykəltəraşlığının sıçrayışlı inkişafına müsbət təsirlərini göstərmiş, həm də mədəniyyətimizə tarixən xas olan Şərq–Qərb vəhdətini yeni zaman müstəvisində irəli aparmışlar. Belə dəvətli alimlər sırasında universal zəka sahibi, tarixçi, memar, rəssam İvan Pavloviç Şeblıkinin şərəfli məqamı var. Azərbaycana 1928-ci ildə gəlmiş İ.P.Şeblıkinin milli tariximizi, xüsusən memarlıq keçmişimizi öyrənmək yolunda ardıcıl səylərinin yekunu olaraq onun Nizami dövrünün memarlıq abidələri haqda əsəri [18] yarandı ki, həm bu araşdırmalar, həm də onun İçəri şəhərin keçmişi ilə bağlı müşahidə və tapıntıları [19] Nizami muzeyinin ilk ekspozisiyasının qurulmasında çox faydalı oldu. 1947-ci ildə baş vermiş qəfil vəfatınacan Azərbaycan tarixinin şah əsərlərini öyrənməkdən usanmayan İ.Şeblıkin həm də yaxşı rəssam olduğundan dəyərli məsləhətləri ilə Nizami muzeyinin ilk ekspozisiyasının bədii tərtibi işinə də köməklərini göstərmiş, bəzi rəsm əsərlərini də məxsusi olaraq ilk ekspozisiya üçün çəkmişdir [Həmçinin bax: 13, 532-533].

Rəfibəylinin (1924–1996) təqdim etdiyi orta əsrlər mədəni mirasımıza aid əlyazmaları XX əsr Azərbaycan sənətşünaslığının təməl əsərləri kimi çox önəmlidir, bir çox cəhətdən bu gün də dəyərini hifz etməkdədir [13, 476-478].

İ.Şeblıkinin artıq çoxdan məhv olub getmiş ayrı-ayrı tarixi abidələrimizi fotoqrafik dəqiqliklə əks etdirən əlvan illüstrasiyaları isə həm memarlıq, həm rəssamlıq tariximiz üçün xüsusi əhəmiyyət daşıyır.

Muzeydə gördükləri digər işlərdən savayı, onlar tərtib olunmuş cədvəl üzrə (həmin əmrin 4, 5-ci bəndləri) muzey əməkdaşlarına mühazirələr oxuyur, məsləhətlər verirmişlər, onlara növbəti ildə açılması nəzərdə tutulan ekspozisiyanı tamaşaçılara necə peşəkarlıqla təqdim etməyin yollarını anladırmışlar.

Bu insanların üçü də çox yüksək peşəkarlar, elə o vaxt artıq canlı klassik adlandırıla biləcək şəxsiyyətlər idilər.

Nizami muzeyi belə qüdrətli sütunların üzərində qurulurdu.

Hələ muzeyin 1940-cı il sentyabrın 29-da verilən 77 saylı əmrlə təsdiqlənmiş, iclasları ayda 2 dəfə keçirilməli olan ilk Elmi-Bədii Şurasının heyətinə baxın.

Bir-birindən parlaq adlar, şəxsiyyətlər: İsmayıl Axundov, Həmid Araslı, Əzim Əzimzadə, Olqa Aleksandrovna Cəlalbəyova (1884–1968) (o, 3 saylı əmrlə 1939-cu il oktyabrın 15-dən muzeyin ilk elmi katibi olmuşdu. 1940-cı il aprelin 8-də verilən 20 saylı əmrlə həmin vəzifəyə Həmid Araslı təyin edilir), İshaq Cəfərzadə, Sadıq Dadaşov (1905–1946), Vadim Leviatov, Y.Kozin, Həsən Mustafayev, Cavad Rəfibəyov, İlya Rıjenko, Pyotr Sabsay[1] (1893–1980), Salam Salamzadə, Həbibulla Səmədzadə[2] (1908–1948), İvan Pavloviç Şeblıkin, Qəzənfər Xalıqov, Əziz Əliyev.

Bu əmrdə də ödəniş məsələsi nəzərdə tutulub : **"Elmi-Bədii Şuranın muzeydə işləməyən üzvlərinə hər iclasda iştiraklarına görə 30 rubl ödənilsin"**) [10, 42b-43a].

Bir başqa əmrsə yeni qurulan muzeydə pəncərələrdən ən gec saatlaradək işıq gəldiyini, gərgin iş saatlarının səhərdən başlayaraq gecəyədək, gecədən sübhədək davam etdiyini anladır.

Oktyabrın 9-da imzalanmış 86 saylı əmr ayın 9-dan 11-dək hətta fasiləsiz iş rejimi müəyyənləşdirir: H.Araslı 9 oktyabr 18-dən 22-dək, Səmədzadə 22-dən gecə 2-dək, Rəcəbov 10-u gecə 2-dən səhər 6-dək, Tağızadə həmin gün 6-dan 10-dək, Makarova 10-dan 13-dək, Koçubeyeva 13-dən 18-dək, Artarov 18-dən 22-dək, Saturov 22-dən gecə 2-dək, Qrişin ayın 11-i 2-dən 6-dək, Cəlalbəyova 6-dan 10-dək, Musayev 10-dan 14-dək [10, 47a-47b].

---

[1] Pinxos Vladimiroviç Sabsay Bakıya 1926-cı ildə köçmüşdü və 1930-cu illərdə Azərbaycan heykəltəraşlığının ən aparıcı simalarından idi. Həmin dövrdə Bakıda başda Mirzə Fətəli Axundovun (1812–1878) abidəsi olmaqla onun yaratdığı istər monumental heykəllər, istərsə də bir silsilə portret-barelyeflər milli heykəltəraşlığın inkişafına təkan verən dəyərli örnəklər idi. Eyni zamanda Pinxos Sabsay Bakı Rəssamlıq texnikumunda dərs də deyərək yeni heykəltəraşlar nəslinin yetişməsinə töhfələrini verirdi. Başlanğıcdan P.Sabsayın Nizami muzeyi ilə bağlı olması, onun tövsiyə və təşəbbüsləri heykəltəraşlıq nümunələrinin bu mədəniyyət və elm ocağının ekspozisiyasında daimi aparıcı yer tutmasını şərtləndirən amillərdən olmuşdur.

[2] Həyatdan erkən – 37 yaşında getmiş bu istedadlı ədəbiyyatşünas miqyaslı və orijinal düşüncə və ifadə tərzi ilə seçilən, 1930-cu illərin sonlarında parlayaraq böyük ümidlər verən parlaq alim idi. Onun Seyid Əzim Şirvani (1835–1888), Cəlil Məmmədquluzadə (1866–1932), Mirzə Ələkbər Sabir (1862–1911) haqda yazıları o dövrün ədəbiyyatşünaslığında yeni söz kimi dəyərləndirilirdi və pedaqoji fəaliyyətlə də məşğul olduğuna, vaxtının qıtlığına baxmayaraq, onu Nizami muzeyinə də işə götürmüşdülər ki, gücündən burada da istifadə edilsin. Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin dekanı olmuş Həbibulla Səmədzadə 1940-cı il aprelin 20-də imzalanan əmrlə Nizami muzeyində yeni yaradılan "Nizami və dünya ədəbiyyatı" şöbəsinin ilk müdiri olmuşdu [10, 10a].

Muzeyin elmi katibi Həmid Araslı ilə bağlı oktyabrın 12-dəki 86 saylı əmrlə dəqiqləşdirmə aparılır: **"İş günü 11-dən 17:30-a və 20-dən 22-dək müəyyən edilsin"** [10, 48a-48b].

Uzun müddət elmi və populyar ədəbiyyatda, eləcə də ictimai düşüncədə yanlış bir fikir möhkəm şəkildə yer tutmuşdu ki, guya Kreml İkinci Dünya müharibəsində faşist Almaniyasının SSRİ-yə hücumuna hazırlıqsız imiş, belə bir həmlənin olacağını təsəvvürə belə gətirmirmiş, hər şey tam qəfildən baş verib.

Bütün bu mülahizələrin əsassızlığı çoxdan sübuta yetirilib, hətta rəsmi Moskvada sonralar Böyük Vətən müharibəsi adlandırılacaq 1941-1945-ci illər savaşının 1941-ci ilin hansı ayının hansı günündə başlanacağına dair dəqiq kəşfiyyat məlumatları da varmış.

Nizami muzeyinin "Əmrlər kitabı"ndakı bir işarə də müharibə bixəbərliyinin səhv ehtimal olduğunu bir daha aşkarca göstərir.

1940-cı ilin oktyabr ayıdır, artıq İkinci Dünya müharibəsi gedir. Həmin davanın SSRİ-yə də sıçrayacağı təqdirdə hətta müharibə baxımından Sovet İttifaqının ucqarlarından sayıla biləcək Bakıda Nizami muzeyi kimi mülki bir obyektin belə müharibə hazırlığı vəziyyətinə gətirilməsi anladır ki, almanların hücumu ehtimalının nəzərdə tutulmaması cəfənfiyyatdır.

Oktyabrın 8-də imzalanmış **"Bakı şəhər İcraiyyə Komitəsinin sərəncamına əsasən Nizami muzeyi binasının hava hücumundan müdafiə zamanı lazımi vəziyyətə gətirilməsi haqqında"** adlı 84 saylı əmrdə qeyd edilir ki, Nizami muzeyinin işıqlanmasının gizlinlənməsi (orijinalda: светомаскировка) aşağıdakı qaydada həll edilsin: **"Axşam saatlarında muzeyin işini normal şəkildə davam etdirməsi üçün işıq gizlinlənməsi 3-cü mərtəbənin 3 otağında və 2-ci mərtəbənin 1 otağında təşkil edilsin; Binanın fasadındakı, həyətdəki və dəhlizlərdəki göy rəngli kontrol lampalar örtüyün altında yerləşdirilsin; Bütün başqa otaqlarda və bütövlükdə binadakı digər işıqlar ümumi paylayıcıdan söndürülsün; Bütün əməkdaşlar və Nizami muzeyi binasında işləyənlər bu əmrdə göstərilənlərə danışıqsız əməl etməli və məsul şəxslərə tabe olmalıdırlar"** [10, 46a-46b].

Nizami muzeyinin quruculuğuna başlanarkən görülən və o vaxtdan bəri də fasiləsiz davam edən digər iş foto ilə bağlıdır.

Bu gün Nizami muzeyinin zəngin fotoneqativ irsi var ki, bunun da təməli məhz muzeyin yaradıldığı ilk aylardan başlayır.

1940-cı il mayın 15-də imzalanan əmrlə Y.İ.Şerbakov 500 rubl məvaciblə fotolaboratoriyanın müdiri vəzifəsinə işə götürülür. Lakin əmrin mətnindən bu da aydın olur ki, həmin fotoqraf muzeyin sifarişlərini icra etməyə daha əvvəldən cəlb edilibmiş. Çünki əmrdə onun əvvəlki günlərə aid maaşı da ala bilməsi üçün işə mayın 8-dən götürüldüyü qeyd edilib [10, 14a].

Muzeyin fondlarında həmin dövrdə Y.İ.Şerbakovun çəkdiyi yüzlərlə fotonun iri şüşə neqativləri qalmaqdadır. Bunların böyük əksəriyyəti kitablardan, əlyazmalardan çəkilmiş müəyyən səhifələrin və illüstrasiyaların, rəsm əsərlərinin, miniatürlərin, ayrı-ayrı eksponatların əksidirsə, Abşerona və Azərbaycanın müxtəlif bölgələrinə səfər edərək çəkilmiş tarixi məskənlərin fotoları da az deyil.

1940-cı ildə çəkilən fotolar arasında Y.İ.Şerbakovla yanaşı, Nizami muzeyi ilə əməkdaşlığa cəlb edilmiş V.M.Şerenko və muzeyin sayca ikinci direktoru İsmayıl Axundovun qardaşı Cavad Axundovdan (1909–1996)[1] qalan kadrlar da az deyil.

Onların yaratdığı foto irsinin bir qismində canlı həyat, muzeyin əməkdaşları, iş prosesi, cərəyan edən yenidənqurma və tikintinin gedişatı əksini tapıb ki, bunlar ekspozisiyada nümayiş üçün nəzərdə tutulmasa da, tarixin fotoxronikasını yaratmaq baxımından dəyərlidir.

C.Axundovun 1940-cı ildə çəkdiyi "Muzeyin əməkdaşı Cavad Rəfibəyov rəssamlar Salman Zeynalov, Lətif Kərimov[2] və heykəltəraş Hüseyn Əhmədovla[3] məsləhətləşərkən" [1, inv. №558], V.Şerenkonun çəkdiyi "Rəssam Sadıq Şərifzadə Məhəmməd Füzulinin portretini işləyərkən" [1, inv. №567], "Nizami muzeyinin bərpa işləri zamanı komsomol iməciliyi" [1, inv. №635], "Nizami muzeyinin bərpası zamanı Maksimovun briqadası tərəfindən örtülü naqillərin montaj edilməsi" [1, inv. №644], "Nizami muzeyinin bərpası zamanı Nizami zalında divarların malalanması" [1, inv. №645], "Yapma sexində briqadir Avdeyev Nizami muzeyinin sütun başlıqlarını bərpa edərkən" [1, inv. №647], Y.İ.Şerbakovun çəkdiyi "Gəncədə "Krasnıy Azerbaydjan" adına parça fabrikində əyirmə sexinin rəisi, staxanovçu Həsən Qədirquliyev" [1, inv. №944], "Gəncədə Serqo Orconikidze adına toxuculuq kombinatında deputat, staxanovçu Bağırova Səmayə əmək fəaliyyətinə görə medal alarkən" [1, inv. №939) və digər onlarca bu cür şüşə neqativ artıq xeyli arxada qalmış onillərin nəfəsini XXI yüzilə çatdırır.

Azərbaycanın ayrı-ayrı rayonları və kəndlərində o sənətkarların çəkdiyi fotolardakı abidələrin, qalaların, türbələrin, məscidlərin, cürbəcür tikililərin çoxu artıq yoxdur, qalanları da büsbütün dəyişdirilərək ayrı görkəm alıb. Bu fotolar həm də köhnə memarlıq incilərinin bərpası üçün bu gün yardımçı olmaq gücündədir.

Örnəyi – 1940-cı il sentyabrın 10-da verilən 71 saylı əmrlə "səyyar fotoqraf" V.M.Şerenko Nizami muzeyi ekspozisiyası üçün fotolar çəkməkdən ötrü 1 ay müddətinə Azərbaycanın rayonlarına ezam edilir [10, 39b].

Nələri çəkib gətirib ki, bu gün o görüntülər itirdiklərimizi diriltməkçün mötəbər vasitə, qiymətlidən-qiymətli tarix anları kimi qəbul edilə bilər?

---

[1] Uzun illər muzeyin əsas fotoqrafı olmuş Cavad Axundovdan qalan bir yadigar da odur ki, hər təzə övladı dünyaya gələndə muzeyin Fəvvarələr bağına baxan tərəfində bir qovaq ağacı əkirmiş. Cavad Axundovun muzeyin arxivində saxlanan şəxsi işindəki sənədlər hansı övladının haçan dünyaya gəldiyini dəqiq göstərdiyindən həmin tarixi qovaqların da dəqiq yaşlarını müəyyən etmək mümkünləşir [2].

[2] Lətif Kərimov (1906–1991) yalnız mahir xalçaçı rəssam, incə zövqlü ornamentalist və xalçaşünas alim deyil, həm də klassik farsdilli ədəbiyyatın bilicisi idi. Nizami muzeyinin qurulduğu ilk çağlarda bu universal zəkalı insan binanın daxili tərtibatındakı gözəl naxışlar şəbəkəsini yaratmaqla kifayətlənmir, həm özünün vaxtilə mənə söylədiyinə, həm də digər köhnə muzey işçilərinin təsdiqləməsinə görə, ayrı-ayrı zallar üzrə mövzu-ekspozisiya planlarının tərtibinə də səriştəli müdaxilə və tövsiyələri ilə əhəmiyyətli kömək göstərirmiş.

[3] İndi adı nadir hallarda xatırlanan və unudulmuş kimi olan Hüseyn Əhmədov (1905–1955) həyatdan tez getsə də, 1940-1950-ci illər Azərbaycan heykəltəraşlığının ən seçilən nümayəndələrindən olub. Əsasən portret janrında çalışan Hüseyn Əhmədovun yaratdığı və Şamaxıda ucaldılmış Sabir abidəsi (1949), "Abbas Səhhət" (1941), "Nazim Hikmət" (1951, 1953) və digər portretləri sənətşünasların yüksək qiymətini almışdır (17, 104-105).

Gedib çıxıb Qonaqkəndə (Qubanın qədim kəndlərindən biri. 1959-cu ilin dekabrınadək rayon mərkəzi olmuşdur).

Oradakı Sükut qalasının şəklini çəkib. Amma işinə əsl peşəkar kimi yanaşıb. Lentə qənaət etməyib, Söhüb kəndindəki Sükut qalasını həm qərb [1, inv. №750], həm şərq tərəfdən [1, inv. №751], həm şimal-qərb səmtindən [1, inv. №753], həm cənub-qərbdən [1, inv. №755] çəkib. Həm yaxından çəkib, həm ən müxtəlif səmtlərdən uzaqdan görünüşlərini lentə alıb [1, inv. №756, inv. №757, inv. №758, inv. №759, inv. №760], həm də qalanın yaxınlığındakı dağıntıları hər ehtimala qarşı çəkməyi gərəkli sayıb.

Buduq kəndində (Quba rayonu) "Daxma" deyilən başqa bir Sükut qalasını da eynən bu təhər – neçə yöndən çəkib (inv. 761, inv. 762, inv. 763, inv. 764, inv. 765), həmin sayaq kamerasını atəşpərəstlərin Xınalıq məbədi sarı da tuşlayaraq müxtəlif görüm bucaqlarından təsvirlər götürüb (inv. 766, inv. 767, inv. 768, inv. 769, inv. 770, inv. 771, inv. 772, inv. 773, inv. 774). Gəlmişkən Xınalıq kəndindəki dağılmış pirin qalıqlarını da bir neçə nöqtədən çəkib (inv. 775, inv. 776, inv. 777, inv. 778, inv. 779).

Pir elə yerdir ki, yəqin, üstündən illər keçəndən sonra indiyədək insanlar onu bir neçə dəfə bərpa ediblər, olsun ki, hər təzə bərpa zamanı da nələrisə bilərəkdən, ya bilməyərəkdən dəyişiblər. Bu gedişatda, söz yox ki, ilkinlik, əsillik itib-gedib.

Hansısa tarixi məkanlarımızı, abidələrimizi, memarlıq incilərimizi ilkin görünüşündə bərpa edib düzəltmək, ya ən azı könül toxtaqlığı üçün onların əsl görkəmini dəqiq təsəvvür etmək istəsək, bu cür fotolardan etibarlı hansı yolgöstərən olar ki!

14 aylıq ömrü olan bu dəftərdəki əmrlərin xeyli hissəsi əməkdaşların ezamiyyətləri ilə bağlıdır. Amma onların içərisində biri (daha dəqiqi, ikisi. Hərçənd ikinci də elə birincinin davamı sayılmalıdır) sanki iltifatının çox olması ilə diqqəti cəlb edir.

Nə iləsə fərqlənirsə, demək, bu seçdirmə səbəbsiz deyil və ona diqqət ayırmağın yeri var.

1940-cı il iyulun 27-də verilmiş 59 saylı əmrdə deyilir ki, baş elmi işçi Olqa Aleksandrovna Cəlalbəyova avqustun 3-dən 25-dək Moskva və Leninqradda ezamiyyətdə sayılsın, ona ezamiyyət xərcləri 900 rubl olan maaşına uyğun verilsin, Leninqrada gediş və Bakıya qayıdış üçün təyyarə, yaxud yumşaq vaqona bilet alınmasına icazə verilsin [10, 32a-32b].

Avqustun 12-də imzalanan 61 saylı əmrdə 59 saylı əmrə dəyişiklik edilir və o dövrün əmrlərinə xas olmayan bir jest edilir: qayıtma müddətinin yeri boş saxlanılır [10, 34a].

Belə çıxır ki, işini haçan qurtardı, onda qayıtsın.

(Və yəqin, elə də olur. Çünki bir də bu məsələ ilə bağlı 1940-cı il oktyabrın 1-də növbəti əmr verilir ki, O.Cəlalbəyova məhz həmin gündən xidməti ezamiyyətdən qayıtmış hesab edilsin) [10, 44a].

Kim idi Olqa Cəlalbəyova ki, ona başqa heç bir əməkdaşa olmayan belə nəvazişkar, imtiyazlı münasibət göstərilirdi?

Olqa Aleksandrovna Cəlalbəyova əslən Gəncədən idi. Həmin dövrdə muzeyin ən yaşlı əməkdaşı olub – 1884-cü il təvəllüdlü idi. Uşaqkən ailəsi Bakıya köçübmüş. Olqa Aleksandrovna Sankt-Peterburqda təhsil aldıqdan sonra yenidən Azərbaycana qayıtmış, Bakıda gimnaziyada müəllimlik etmişdi. Böyük maarifçilər Həsən bəy Zərdabi (1842–1907), Nəcəf bəy Vəzirov (1854–1926), Nəriman Nərimanovla (1870–1925) dostluq etmişdi. O, ekspozisiya, sərgi qurmaqda ən güclü mütəxəssislərdən hesab edilirdi, 1920-1937-ci illər arasında Azərbaycan Xalq Maarif Komissarlığında onun bilavasitə rəhbərliyi ilə SSRİ-nin Londonda, Parisdə, Praqada, Leypsiqdə və digər Avropa şəhərlərində nümayiş etdirilən mədəniyyət sərgiləri tərtib edilmişdi [6].

1939–1958-ci illərdə, yəni Nizami muzeyində çalışdığı vaxtlarda da Olqa Cəlalbəyova Moskvada Azərbaycan ədəbiyyatı və teatrının tarixi və nailiyyətlərinə aid sərgilərin əsas təşkilatçısı olmuşdu [6].

İstisna deyil ki, Olqa xanımın bu ezamiyyəti də elə həmin sərgilərlə bağlı idi və Azərbaycan hökumətinin xüsusi tapşırığını icra etdiyindən ona xüsusi də münasibət göstərmək tapşırılıbmış. Bu xüsusi münasibət də elə əmrdəki imtiyaz məqamlarından duyulmaqdadır.

Nizami muzeyinin ilk ekspozisiyasının zövqlə, səriştə ilə qurulmasında da bu təcrübəli insanın əməyi böyük idi.

“Hələ qurulub qurtarmamış muzeydə intizam məsələləri necə təşkil edilibmiş” sualına da “Əmrlər kitabı”nda diqqətçəkən cavablar var.

İşə gəlib-getmək məsələsində güzəşt yoxmuş. Dəqiqəsinədək dəqiqliklə gəlib dəqiqəsinədək dəqiqliklə də gedirlərmiş.

Belə etməyəndə cəza özünü çox gözlətmirmiş.

1940-cı il iyunun 29-da verilmiş əmr işarə edir ki, gənc kiçik elmi işçi R.Rəcəbova hər halda yumşaq yanaşılıb. İşdən 5 dəqiqə tez getdiyinə görə ona hələlik töhmət verilmir, xəbərdarlıq elan edilir [10, 26a] (Avqustun 28-də imzalanmış bir əmrdən R.Rəcəbovun Bakı Dövlət Universitetinin tələbəsi olduğu bilinir. Görünür, qabiliyyətli gənc olduğuna görə işə götürüblərmiş, yəqin, cavanlığına, tələbəliyinə görə də güzəşt edərək cəzanı töhmət səviyyəsinə qaldırmayıblar).

Digər cəza – muzeyin elektriki hansısa işi ilə əlaqədar 1940-cı il mayın 27-də 20 dəqiqəliyə icazə almadan muzey binasından kənara çıxıb. Hələ müharibə başlanmayıb, sonra rejim daha sərt olacaq, amma heç indi də yumşaq deyil və heç bir intizamsızlıq tənbehsiz ötüşmür. Elektrik V.Kasparov da töhmət alır [10, 17 b].

Ya başqa töhmətli əmr. Cəza qarovulçu A.Avetisova muzey binasına daxil olmaq üçün buraxılış vərəqələrinə səhlənkar münasibət bəslədiyinə görə verilir [10, 31b].

Daha qorxulu cəza əmri də var. 1940-cı ilin 16 iyulunda yubiley komitəsi üçün alınmış materialı mənimsədiyinə görə təsərrüfat müdiri-kassir A.K.İskəndərov vəzifəsindən azad edilir və həmin əmrlə işi prokurorluğa verilir [10, 30a] (Yəqin, A.İskəndərov indi həyatda olmaz, amma qohum-əqrəbası ki qalır. Ona görə dəftərdə bir müddət sonra qarşıma çıxan bir əmri də bura əlavə edirəm ki, o rəhmətliyin də ruhu inciməsin. 1940-cı il oktyabrın 16-da verilən əmrlə A.K.İskəndərov Voroşilov

rayonu xalq məhkəməsinin 13 oktyabr tarixli qərarı ilə özündən asılı olmayaraq buraxdığı 20 iş gününün haqqı ödənilmək şərti ilə əvvəlki vəzifəsinə bərpa edilir. Haqq yerini tutur. Amma A.İskəndərov üstündən ləkə silinəndən sonra, yəqin ki, artıq aradan pərdə götürüldüyünə, ürəyi sındığına görə muzeydə qalmaq istəmir. Vəzifəsinə bərpa olunmaq əmri veriləndən 1 gün ötüncə oktyabrın 17-də ərizəsini yazır və ayın 19-dan öz xahişi ilə işdən azad olunur) [10, 43a-b].

İşçiləri gecələr də gəlib yoxlayırmışlar. Müşahidə edirlər ki, qarovulçu A.Avetisov gecə növbə çəkərkən 5 dəqiqə mürgüləyib.

Dərhal sənədləşdirirlər.

Ertəsi gün səhər – 1940-cı il sentyabrın 28-də 76 saylı əmr verilir: “İşdə 5 dəqiqə yatdığına görə sonuncu xəbərdarlıqla şiddətli töhmət elan edilsin” [10, 42a].

10 mart tarixli 13 saylı əmrləsə Y.A.Mixaryovaya işə 7 dəqiqə gec gəldiyinə görə töhmət elan edilir [10, 6a].

Amma iş vaxtı məsələsinə yaradıcı yanaşaraq müəyyən sərbəstlik də verilməsi halları olurmuş.

Göstərəcəyimiz halda, yəqin, bu həm də havaların istiləşməsi ilə bağlıymış. Saatlar həmin saatlardır, norma nə qədərdir, o qədər də işləməlisən. Ancaq bəzi saatları nisbətən sərin saatlara atmağa mane olmurlarmış.

Fəqət dildə verilən icazə ilə yox. Əmrlə!

6 iyul tarixli əmrə əsasən şöbə müdiri Həbibulla Səmədzadəyə ayın 2-dən 15-dək işə saat 11:30-da gəlib 16:30-da getməyə, amma əvəzində axşam 19:00-dan 22:30-dək işini davam etdirməyə, baş rəssam İsmayıl Axundova muzeyə saat 12-də gəlib 16:30-da getməyə, əvəzində axşam 21:00-dan 00:30-dək işləməyə icazə verilir [10, 27b].

Bu “Əmrlər kitabı” başqa bir qaranlıq səmtə də işıq salır ki, orada sənət tariximizdə qalan bir sıra artıq çox məşhur əsərlərin yaranış tarixi ilə bağlı sirlər var.

Həmin əmrlər olmasaydı, bu əmrlərin verilməsinə razılıq əldə edilməsəydi, olsun ki, heç həmin əsərlər də yaranmazdı.

Razılıqsa əldə edilməyə bilərdi.

Çünki rəssamların hər biri ilə konkret mövzu ilə bağlı müqavilə imzalanmışdı, avans ödənilmişdi, icra müddəti müəyyən edilmişdi.

1939-cu il dekabrın 14-də rəssam Aleksandr Trofimoviç Pestun-Dibrovski (1902–1951) imzaladığı müqaviləyə əsasən Nizami Gəncəvinin “İskəndərnamə”si mövzusunda 6 qrafik lövhə çəkməliydi.

1940-cı il mayın 29-da muzeylə razılığa gəlinir ki, həmin razılaşdırılmış işlərin yerinə “Dulusçuluq”, “Nəqqaşlıq”, “Bazarda barama satışı”, “Bazar meydanı”, “Tərtər sahilində” (adamlar da olan mənzərə) mövzulu əsərlər çəkilsin [10, 20a-b].

Bunları çəkib və qrafika ustası olan rəssamın bu əsərlərinin hər biri çox gözəldir.

Nizami muzeyinin saxlancında “İskəndərnamə”yə və “Xəmsə”dəki digər məsnəvilərə müxtəlif rəssamların yaratdığı onlarla illüstrasiya var ki, ekspozisiya üzü görmədən elə qovluqlarda yatıb qalır, münasibətdən-münasibətə yada düşür. A.Pestun-Dibroskinin bu işləri isə daim ekspozisiyada, göz qabağındadır (O, 1940-cı

il oktyabrın 16-da verilən əmrlə bir müddət rəsmən Nizami muzeyinin rəssamı vəzifəsində də işləyib) [10, 43a].

Nə bilmək olar, bəlkə irəlicədən danışılanları çəksəydi, onların da taleyi belə olacaqdı?

Mümkündür, lakin burası da danılmazdır ki, məlum poemanın məlum süjetlərinə çəkilmiş bollu rəsmlərdə müəyyən təkrarçılıq qaçılmazdır. Bu çəkilmiş lövhələr isə yalnız bir rəssamın məhz bu cür duyub, bu cür gördüyü səhnələrdir.

Yaşaya biləcək əsərin gələcəkdə öləcək (amma o zaman siyasi çəkisinə görə işə yaxşı yarayacaq) konyunktur mövzu ilə əvəzlənməsi də olub.

1939-cu ilin 23 noyabrında rəssam Aleksey Petroviç Zarubinlə (o, Bakıda 1939–1952-ci illərdə yaşayıb-fəaliyyət göstərib. 1939–1941-ci və 1948–1952-ci illərdə Bakı Rəssamlıq məktəbində dərs deyib) anlaşılıbmış və avans da verilibmiş ki, "Xosrov və Şirin" poeması əsasında "Ov" adlı lövhə yaratsın. Lakin 1940-cı il iyunun 4-də razılığa gəlinir ki, mövzu dəyişdirilsin. İyunun 7-də 41 saylı əmr imzalanır və A.Zarubin başlayır "Sergey Orconikidze, Sergey Kirov və Anastas Mikoyan Azərbaycan zəhmətkeşləri arasında" əsərini çəkməyə [10, 22a]. Yaxşı da çəkib. Amma indi o şəkil kimə gərəkdir? Hələ Sovet İttifaqı çökməmişdən bu siyasət də, bu adlar da öldü, onlarla birgə bu və buna bənzər nə qədər şeir, rəsm, musiqi əsəri də ömrünü bitirdi.

Sadıq Şərifzadə (1912–1986) böyük rəssam idi, nə çəksə, gözəl olacaqdı. 1939-cu ilin 1 dekabrında muzeylə müqavilə bağlayıbmış ki, "Nizami oğlu ilə Göy göl sahilində" lövhəsini çəkəcək. Nəyə görəsə mövzu onu tutmayıb. 1940-cı ilin 10 iyununda müqaviləni dəyişirlər. Bu dəfə öz təklifi ilə "Füzuli poema yazır" və "Rəssam Behzad iş başında" adlı əsərləri çəkmək istəyir. İyunun 11-də verilən əmrlə bu seçim təsdiqlənir [10, 22b].

Beləcə, orta əsrlərin məşhur "Şərq Rafaeli" Kəmaləddin Behzadın (1455–1536) surəti ilk dəfə müasir Azərbaycan rəssamının fırçasında dirilik tapır.

Bu gün də həmin əsər Nizami muzeyinin ekspozisiyasında hər gün göz oxşayır.

Amma yaranmalı olub yaranmayan mövzular da varmış.

Əlbəttə, indinin rəssamları həmin mövzuları götürüb işləyə bilərlər.

Lakin köhnə rəssamlar, o məktəb, o üslub, o yanaşma daha yoxdur. O epoxa, o gerçəkçi təsvir tərzi onlarla getdi.

Tağı Tağıyevlə (1917–1993) 1939-cu il dekabrın 13-də müqavilə imzalanmışdı ki, "İskəndərnamə" əsasında "Zəncilərin məğlubiyyəti" adlı lövhə yaratsın. Tağı Tağıyev işə başlayıbmış da. Bunu mənə rəssam özü danışırdı ki, muzey rəhbərliyi digər təcili işlə bağlı onu bu mövzudan ayırır. Açılışa qədər muzeyin böyük zalında nümayiş etdiriləcək bir əsər mütləq hazır olmalı idi: "Nizamidən sonrakı Azərbaycan şairləri". 24 şairin portretini əhatə edən bu irihəcmli əsərin öhdəsindən qısa vaxtda gəlmək 1 nəfərin, 3 nəfərin işi deyildi. Ona görə əsəri tezliklə tamamlamaqdan ötrü Salam Salamzadənin rəhbərliyi ilə bir dəstə rəssamdan ibarət xüsusi briqada yaradılmışdı. 1940-cı il iyunun 5-də Tağı Tağıyev köhnə mövzudan imtina edərək bu yeni əsəri tamamlamalı olan briqadaya qoşulur, iyunun 11-də 42 saylı əmrlə bu razılıq sənədləşdirilir, əvvəlki sifariş üçün almış olduğu avans da bu yeni əsər üzərində işinin zəhməthaqqısı kimi nəzərə alınır [10, 22b].

Lakin muzeydə ümumi tərtibat işləri ilə bağlı da briqadalar yaradılmışdı.

Elə həmin əmrin digər bəndi göstərir ki, rəssam Əlibala Kazımova (1910–1982) 1939-cu il noyabrın 16-da bağlanmış müqaviləyə əsasən çəkməli olduğu “Nizaminin Qızıl Arslanla görüşü”, “Hind gözəli Bəhramın sarayına daxil olarkən” mövzularını bir kənara qoyaraq Salman Zeynalovun (1910-1990) briqadasına qoşulmaq tapşırılır [10, 22b-23a].

Eynən o cür rəssam Məmməd Şirinov (1906–1968) çəkməli olduğu “Leyli ilə Məcnunun son görüşü”, “Fərhad qayaya Şirinin surətini həkk edir”, “Bəhram iki şir arasından tacı götürür” əsərlərinin əvəzinə işini Qəzənfər Xalıqovun briqadasında davam etdirməli olur [10, 23a].

Mühafizəkar bir dövrün içərisində artıq təsdiqləmiş, maliyyə məsələləri həll edilmiş müqavilələrlə belə sərbəst görünə biləcək davranışlar Nizaminin xatirinə, yaxınlaşan yubileyədək muzeydəki tərtibat işlərini layiqincə başa çatdırmaq naminə edilirdi, əlbəttə ki, yüz faiz tam azad şəkildə də deyil, müvafiq yuxarılarla razılaşdırılaraq.

1940-cı ilin bitər-bitməzində Nizami yubiley komitəsinin qərarına əsasən muzeydə bir əmr də hazırlanır.

102 saylı əmr dekabrın 10-da verilir. Ancaq muzeyin elmi katibi Həmid Araslı artıq dünən yola düşüb. Elə əmrdə də bu cür yazılıb: “Dekabrın 9-dan 18-dək Nizaminin əsərlərinin əlyazmalarını almaq məqsədi ilə İrəvan şəhərinə ezam edilsin” [10, 56a].

Bu vacib səfərin ezamiyyət xərclərini də muzey deyil, yubiley komitəsi ödəməyi öhdəsinə götürür.

Həmid Araslı səfərdən əlidolu qayıdır [10, 56b].

Nizami muzeyinin də, Nizami yubiley komitəsinin də yeni il astanasında dərindən nəfəs almaq haqqı var. Çiyinlərindəki ağır yük yüngülləşən kimidir.

Nizami muzeyi üzrə 1940-cı ilin 31 dekabrına aid 105 saylı son əmr yubiley hazırlıqlarının müəyyən olunmuş qrafik çərçivəsində, yüksək səviyyədə getdiyini və dahi şairin qarşıdakı 1941-ci ildə təntənə ilə qeyd edilməli olan 800 illiyinə muzeyin açılışına mane olacaq bir səbəbin qalmadığını göstərir.

Həmin əmrlə binadakı yenidənqurma, təmir-tikinti işlərinin bitməsi ilə əlaqədar muzeyə bu münasibətlə müvəqqəti qəbul edilmiş əməkdaşlar işdən azad edilirlər [10, 57b].

Bina hazır, eksponatlar toplanıb, sifariş edilmiş rəsm əsərləri çəkilib.

Qalır gözəl təmir edilmiş muzey binasının zallarında onları zövqlə, səliqə ilə yerləşdirmək və 1941-ci ilin sentyabrında keçiriləcək Nizami yubileyi günlərində qapıları tamaşaçıların üzünə açmaq.

O günü Azərbaycan da, muzey də ruh yüksəkliyi ilə gözləyir.

Lakin 1941-ci ilin yayında başlanacaq müharibə bu ümidləri yarı yolda qoyacaq.

Muzeyin açılışı 5, yubileyin keçirilməsi 7 il təxirə düşəcək.

74 vərəqlik “Əmrlər kitabı”nın 58 səhifəsi yazılıb. Qalan 32 səhifə boşdur.

Əlbəttə, bu qədər boş səhifə varkən elə növbəti ilin əmrlərini də həmin dəftərdəcə davam etdirmək olardı.

Amma yox!

1941 xüsusi ildir, bayram ilidir.

Muzey açılacaq, Nizaminin 800 yaşının fərəhli təntənələri yaşanacaq. Hər şey təzə olsa yaxşıdır. Elə "Əmrlər kitabı" da!

Bundan sonra gələn "Əmrlər kitabı" 100 səhifədir. Lakin daha əvvəlki ovqat yoxdur. Bir dəftərxana kitabında 6 ilin əmrləri yazılıb.

1941-ci ilin əvvəlindən ta 1946-nın sonuna qədər. Sadəcə hər il tamamlananda bir vərəqi qatlayaraq növbəti ili qeyd ediblər [11, 2a, 42a, 54a,74a].

Zamanın qaramatlığı və insanın ruhdan düşməsi, coşqun həvəsin sönməsi, xəyal qırıqlığı hətta zahirən əhəmiyyətsiz sayıla biləcək belə xırdalıqlarda da özünü göstərir...

Yüzillər, minillərlə torpaq altında uyumuş daşlar gün işığına çıxınca dil açıb çox həqiqətləri söylədiyi kimi, illərlə arxivlərin səssizliyində kirimişcə qalmış saralmış vəqərlərin də dilini bilən dindirincə beləcə gizlincləri açması, vaxt dumanını dağıdaraq məhrəmləşməsi, doğruçu danışmağı var.

`

## QAYNAQLAR:

1. AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi. NEQATİV bölməsinin siyahısı. Kitab № 1, 2. Başlanır: inventar №1. Bitir: inventar №2703
2. Cavad Axundovun şəxsi işi. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin arxivi
3. Cəmilə Novruzova. Fuad Əbdürrəhmanov. "Nurlan", Bakı, 2004
4. Həbibulla Səmədzadənin şəxsi arxivi. Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivi
5. Həbibbula Səmədzadənin şəxsi işi. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin arxivi
6. Olqa Cəlalbəyovanın şəxsi arxivi. Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivi
7. Rafael Hüseynov. Yurdun adındakı can. "Elm", Bakı, 2010
8. Salam Salamzadə. Unudulmaz müəllimim. "Ədəbiyyat və incəsənət". Bakı, 10 fevral 1984
9. Tamilla Kərimova. Azərbaycan Milli Elmlər Akademiyasının yaranması. "Elm və təhsil", Bakı, 2015
10. Академия наук Азербайджанской ССР. Музей Азербайджанской литературы имени Низами. Фонд №25. Опись №3. Единица хранения №1. Книга приказов. Начато: 1.X.1939. Окончено: 31.XII.1940. Хранить 75 лет. На 73 листах
11. Академия наук Азербайджанской ССР. Музей Азербайджанской литературы имени Низами. Фонд №21. Опись №3. Единица хранения №2. Книга приказов. Начато: 5.I.1941. Окончено: 25.XII.1946. Хранить 75 лет. На 100 листах
12. Валентина Золотарёва. Художник Илья Рыженко // Известные камышане двадцатого века. Камышин, 2003, В.
13. Керимова Тамилла. Из истории национальной Академии наук Азербайджана. Издательство «Тахсил», Баку, 2005
14. Левиатов В.Н. Керамика старой Гянджи. Издательство АзФАН, Баку, 1940 (44 стр.)
15. Левиатов Вадим Николаевич. Очерки из истории Азербайджана в XVIII веке. Издательство АН Азербайджанской ССР. Баку, 1948 (227 стр.)
16. Левиатов В.Н. Памятники Азербайджанской культуры: Бакинский дворец Ширваншахов. Академия наук СССР, Азербайджанский филиал, Институт истории, Баку, 1944 (52 стр.)
17. Н.Габибов, П.Гаджиев, Н.Милашевская, Д.Новрузова. Очерки изобразительного искусства советского Азербайджана. Живопись, скульптура, графика. Издательство Академии Наук Азербайджаннской ССР. Баку, 1960
18. Щеблыкин И.П. Краткий очерк истории Дворца ширваншахов в Баку. Баку, 1939
19. Щеблыкин И.П. Памятники Азербайджанского зодчества эпохи Низами: материалы. Издательство АзФАН, Баку, 1943 (95 стр.)

**Rafael Huseynov**

## The start of the way – the first year of Nizami Museum visible from the Book of Orders

***Summary***

The National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi was founded in November 1939 by the decision of the Government of Azerbaijan in relation with the 800$^{th}$ anniversary of the author of "Khamsa", which would take place and be celebrated in 1941. Initially, it was supposed to function as a house-museum of the poet-philosipher. However, due to the participation of the Soviet Union which then included also Azerbaijan, in the Second World War of 1941, the celebration of the anniversary of Nizami, like many other cultural initiatives, was postponed. While construction activities in the museum continued, the opening of the exhibition to the public was delayed until the end of the war, which took place in May 1945. Over time, this important cultural and scientific institution, which turned into a museum reflecting not only one great poet, but the entire Azerbaijani literature, began to be built in the mid twentieth century by the joint efforts of prominent Azerbaijani scholars. This process was closely attended not only by literary scholars, but also historians, art historians and archaeologists. From the very beginning, the founders of the museum looked to the future and envisioned the future of this place as the one that represents and promotes the literature of Azerbaijan from ancient times to the present day. This is evidenced by the exhibits collected from the first year of the construction of the museum, paintings and sculptures commissioned by individual Azerbaijani artists, manuscripts and archival documents. Details about the years of the museum foundation are accurately reflected in the company's first book of orders. This first handwritten Book of the Orders was started on October 1, 1939 and completed on December 12, 1940. The last entry on the front cover of the book states that it should be kept for 75 years. However, these pages contain the names of so many worthy people who have done a lot for Azerbaijan, so many interesting details about the history of the Nizami Museum that such documents must be kept for indefinite time. The article describes the socio-political, cultural and intellectual environment of the period when the National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi was founded on the basis of the news from the Book of Orders, memories of living witnesses and other documents stored in various archives.

**Рафаэль Б.Гусейнов**

# НАЧАЛО ПУТИ – ПЕРВЫЙ ГОД МУЗЕЯ НИЗАМИ, ПРЕДСТАВЛЕННЫЙ В ПЕРВОЙ «КНИГЕ ПРИКАЗОВ» МУЗЕЯ

***Резюме***

Национальный музей азербайджанской литературы имени Низами Гянджеви был основан в ноябре 1939 года по постановлению правительства Азербайджана в связи с 800-летием автора «Хэмсэ», которое было предусмотрено торжественно отпраздновать в 1941 году. Первоначально было предусмотрено, что он будет функционировать как мемориальный музей поэта-мыслителя. Однако в 1941 году после участия во Второй мировой войне Советского Союза, в состав которого входил и Азербайджан, был отменен ряд культурных инициатив, в том числе и празднование юбилея Низами. Хотя созидательные работы в музее продолжались, открытие экспозиции для зрителей также было отменено до периода после завершения войны и оно свершилось в мае 1945 года. Спустя годы это важное культурное и научное учреждение, превратившееся в музей, отражающий панораму не только одного гениального поэта, но, в целом, азербайджанской литературы, начал формироваться совместными усилиями видных азербайджанских ученых середины XX века. Кроме того, в этом процессе принимали непосредственное участие не только литературоведы, но и историки, искусствоведы, археологи. С самого начала основатели музея, глядя в будущее, представляли завтрашнее музея именно как пространство, представляющее и пропагандирующее литературу Азербайджана с самых древних времен до современного периода. Это подтверждают также экспонаты, собранные с первого года основания музея, образцы художественных произведений и скульптуры, заказанные отдельным азербайджанским художникам, приобретенные рукописи и архивные документы. Подробности о периоде формирования музея в точности находят свое отражение в первой книге приказов учреждения. Эта первая «Книга приказов», написанная от руки, начинается с 1.X.1939 года, завершается в 31.XII.1940 году. В последнем примечании, отраженном на обложке тетради, указано хранить 75 лет. Однако на этих страницах встречаются имена стольких достойных людей, сделавших для Азербайджана очень большие дела, отражены столько интересных деталей, связанных с историей создания музея Низами, что подобные документы, в действительности, нуждаются в бессрочном сохранении. В статье на основе полученной из «Книги приказов» информации, а также воспоминаний живых свидетелей, других документов, хранящихся в различных архивах, изображается общественно-политическая, культурно-интеллектуальная среда периода начала формирования Национального музея азербайджанской литературы имени Низами Гянджеви.